***Rəvanə Fərrux qızı ƏLƏKBƏROVA***
***magistrant***
***E-mail:elekberovarevane50@gmail.com,***

***Köçəri Şamil oğlu ALLAHVERDIYEV***
***c.e.n., dosent***
***E-mail: allahverdiyev-1956@mail.ru***
***Azərbaycan Kooperasiya Universiteti***

# NAXÇIVAN AZAD İQTİSADİ ZONASININ YARADILMASI İMKANLARI VƏ ƏRAZİ TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

Məqalədə Naxçıvan MR-də dünya təsərrüfatçılıq təcrübəsinin yeni və əhəmiyyətli regional formalarından biri olan azad iqtisadi zonanın (AİZ) yaradılması məsələsi ön plana çəkilir. Belə

zonaların Naxçıvan Muxtar Respublikasında yaradılması onun yerli təbii və əmək potensialından daha dolğun istifadə etməyə, iqtisadiyyatın inkişafına, qapılarının xaricə açılmasına və ağır blokada şəraitindən qurtarmasına imkan verərdi. Həm də AİZ-in köməyi ilə respublikanın ərazi iqtisadi diferensiasiyasını genişləndirmək, yeni sahələrin və sənaye mərkəzlərinin inkişafına nail olmaq mümkündür.

***Açar sözlər: Azad iqtisadi zona, optimal mərkəzlər, gömrük sərhədləri, maliyyə sistemi, əlverişli nəqliyyat qovşağı, istehsal tipi və ticarət və xidmət tipləri və s.***

***

Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi, mühafizəsinin təkmilləşdirilməsi Azərbaycan dövlətinin ekoloji siyasətinin əsas istiqamətlərindən biri olub.

Fikrimizcə, Naxçıvan MR-in ərazisində AİZ-in yaradılması, ixtisaslaşması, xarici amillərin təsiri və s. məsələlər elmi cəhətdən hərtərəfli tədqiq olunmalıdır.

Azərbaycanda AİZ-in yaradılması istiqamətində ilk təşəbbüsü və konkret əməli fəaliyyəti BMT-nin respublikamızdakı nümayəndəliyi irəli sürmüşdür. Həmin nümayəndəlik Sumqayıt şəhərində beynəlxalq metodikaya və standartlara uyğun olaraq xüsusi azad iqtisadi zonanın yaradılmasının tam layihəsini vermiş və növbəti zonanın Naxçıvan MR-də salınması istiqamətində müəyyən təkliflər irəli sürmüşdür.

A.H.Qəribov özünün dissertasiya işində Naxçıvan Muxtar Respublikasında müasir sosial-iqtisadi inkişaf meyilləri, təbii və əmək potensialını və s. ətraflı nəzərdən keçirərək, burada AİZ-in yaradılmasını əsaslandırmışdır [1, s. 12-13]. Lakin, onun apardığı tədqiqatlardan görünür ki, müəllif AİZ-in Naxçıvan Muxtar Respublikasının bütöv ərazisində yaradılmasını nəzərdə tutur və ona görə də konkret ünvan rayon və şəhər yeri göstərmir. Nəzərə almaq lazımdır ki, AİZ-lər ölkənin bir şəhərində və yaxud məhdud ərazi daxilində yaradılır və özünün kömrük sərhədləri, maliyyə sistemi, polisi və s. olur və bir çox hallarda hətta onun ətrafına hasar çəkilir. [2, s.122].

Naxçıvan Muxtar Respublikası daxilində AİZ-lərin müxtəlif formaları, optimal mərkəzləri, inkişaf şəraiti və amilləri ətraflı nəzərdən keçirilməlidir. Diyarda AİZ-lərin səmərəli təşkili və fəaliyyətini təmin edən başlıca şərtlər bunlardır:

- Yeni və mütərəqqi təsərrüfatçılıq formaları yaratmaq hesabına iqtisadiyyatın inkişafına nail olmaq;
- Xarici sərmayələri, xüsusilə qonşu Türkiyənin geniş imkanlarını AİZ-in yaradılması layihəsinə cəlb etmək;
- Azərbaycan və Naxçıvan Respublikasının olduqca əlverişli nəqliyyat qovşağı və tranzit mövqelərindən geniş istifadə etmək;
- Naxçıvan Muxtar Respublikasının zəngin və müxtəlif mineral-xammal aqroiqlim potensialından yüksək hazırlıqlı sərbəst işçi qüvvəsindən istifadə etmək və s.

Sənayeləşmə prosesi sürətlə gedən Türkiyə üçün yaxın qonşuluqda yerləşən Naxçıvanın təbii ehtiyatlarının mənimsənilməsində və AİZ-in yaradılmasında iştirakı xeyli cəlbedici olardı. Bu ölkə bazar iqtisadiyyatı yolunda kifayət qədər irəliləyib və ona çoxlu enerji, müxtəlif mineral-xammal tələb olunur. Göstərilən vəziyyətdə qonşu Naxçıvanın onun üçün böyük maraq doğurması təbiidir. Bundan başqa Türkiyənin beynəlxalq sahədə topladığı təcrübədən, xüsusilə Yaxın Şərq və Avropa ölkələri ilə uzun illərdən bəri fəaliyyət əlaqələrindən Naxçıvan AİZ-in inkişafında da istifadə edilə bilər.

Digər mühüm mənbə, fəal işgüzarlığı ilə fərqlənən sərmayə toplayan ölkədə və xaricdə çalışan Naxçıvan əsilli iş adamlarının böyük güzəştlərlə AİZ-in reallaşmasına cəlb edilməsi olardı.

Müasir dövrdə AİZ-in yaradılmasının çox vacib şərtlərindən biri ölkənin əlverişli iqtisadi-coğrafi mövqeyə, dünya bazarlarına çıxışını təmin edən nəqliyyat-kommunikasiya sisteminin yaxşı inkişaf etməsidir. Bu baxımdan Naxçıvanın imkanları xeyli genişdir. Əgər Ermənistan öz təcavüzkar niyyətindən əl çəkib Naxçıvanın blokadasını aradan qaldırsa, o zaman qlobal Qərb-Şərq (İstanbul-Kars-Erevan-Bakı), Şimal-Cənub (Moskva-Bakı) və (Tbilisi-Yerevan-Culfa-Naxçıvan-İran körfəzi) istiqamətlərində gediş-gəliş açıla bilər və bütövlükdə region ölkələrinə böyük xeyir gətirər.

Azərbaycandan İrana və Ermənistana gedən dəniz yolu, Sədərək körpüsündən keçərək Türkiyəyə çıxan avtomobil yolu və yenə də Gürcüstan və Ermənistanı İrana birləşdirən yeganə dəmir yolu məhz Naxçıvan Muxtar Respublikası ərazisindən və Culfa körpüsündən keçir. Tarixi keçmişdə yuxarıda adları çəkilən istiqamətlərdə Böyük İpək yolunun qolları fəaliyyət göstəribdir və həmin dövrdə Təbriz və Culfa şəhərləri azad iqtisadi zonaları xatırladan iri ticarət mərkəzlərinə və ipək anbarlarına malik idilər. Tarix bu yolların yenidən bərpası üçün əlverişli şans veribdir.

Hal-hazırda dünya praktikasında fəaliyyət göstərən AİZ-lərin aşağıdakı iki tipi ayrılır:

1. İstehsal tipli AİZ-lər; 2) Ticarət və xidmət tipli AİZ-lər. Onların hər ikisi Naxçıvan Muxtar Respublikasının yerli şəraitinə daha çox münasibdir. [3, s. 48-49].

Naxçıvan Muxtar Respublikasında dağ-mədən sənayesi yönümlü AİZ-lərin yaradılmasına üstünlük verilə bilər. Əlbəttə, bu heç də ticarət, kənd təsərrüfatı məhsulları istehsalı və emalı yönümlü AİZ-in inkişafını inkar etmir.

Naxçıvanın sənaye əhəmiyyətli faydalı qazıntıları ətraflı öyrənilib və bəziləri hətta istidafə olunurdu. Naxçıvan Muxtar Respublikasında istehsal yönümlü AİZ-lərin yaradılmasında istifadə oluna bilən ən iri faydalı qazıntılar bunlardır: sink, qurğuşun, mis, molibden, gümüş, qızıl, geniş çeşiddə tikinti materialları, daş duz, mineral bulaqlar və s.

Adları çəkilən mineral-xammal yataqlarının çoxu dağlıq ərazilərin çətin relyef şəraitində yerləşdiyinə görə onların istifadəsinin düzən ərazilərdə yaradılacaq AİZ-də aparılması daha məqsədəuyğun olardı.

Naxçıvanda istehsal xarakterli AİZ-lərin yaradılması aşagıdakı istiqamətdə aparıla bilər:

- yerli müalicə bulaqlarının istifadəsi əsasında güclü sudoldurma kompleksinin inkişaf etdirilməsi və onun məhsullarının ixracata yönəldilməsi;
- intensiv əkinçilik-üzümçülük, tütünçülük, bağçılıq, baramaçılıq və başqa sahələri ixtisaslaşdırmaq və onların məhsullarının kütləvi ixracatını təşkil etmək;
- güclü müalicə-kurort kompleksinin yaradılması və s.

Yuxarıda göstərilən istehsal sahələrinin yaradılması Naxçıvanın inkişaf etmiş mövcud infrastrukturuna, ixtisaslı və səriştəli əmək ehtiyatları potensialına əsaslana bilər. [4, s.142].

Naxçıvan Muxtar Respublikası ərazisində AİZ-lər üçün daha münasib mərkəzlərin seçilməsi və onların ətraflı təhlilinin aparılması çox vacib iqtisadi-coğrafi məsələlərdəndir. Belə seçim üçün aşagıdakı coğrafi şəraitlər nəzərə alınmalıdır:

- təklif olunan konkret ərazilərin nəqliyyat-coğrafi mövqeyi;
- qonşu ölkələrə çıxışın olması;
- bu ölkələrin inkişaf səviyyəsi və sərmayə imkanları;
- təbii və əmək ehtiyatlarına yaxınlığı.

İqtisadi coğrafiyada geniş yayılmış ərazilərin dayaq mərkəzləri və inkişaf zonaları ideyasından AİZ-lərin yaradılmasında istifadə edilməsi faydalı olardı. Naxçıvan Muxtar Respublikasında AİZ-lərin yerləşdirilməsində əhəmiyyət kəsb edən belə əsas inkişaf oxu rolunu Ordubad-Culfa-Naxçıvan- Şərur-Sədərək-İqdir (Türkiyə) magistral nəqliyyat sistemi (həm dəniz yolu, həm də avtomobil yolları) oynaya bilər. Respublikanın müxtəlif tipli dağlıq və düzənlik ərazilərinin qovşağı ilə keçən bu nəqliyyat xətti həm dağlıq və həm də düzənliklərində olan müxtəlif təbii şərait və təbii ehtiyatlardan AİZ-lərin inkişafında səmərəli istifadə edilməsinə imkan verər, [5, s.185].

Naxçıvan Muxtar Respublikasının daha çox inkişaf etmiş iri iqtisadi və inzibati mərkəzləri olan Naxçıvan, Ordubad, Culfa, Şərur və Sədərək şəhər və qəsəbələri məhz inkişaf zolağının üzərində yerləşirlər. Keçmiş illərdə bu şəhərlərdə yaradılmış infrastruktur və maddi-texniki baza, müəyyən hazırlığı olan işçi qüvvəsi və s. AİZ-lərin inkişafını xeyli asanlaşdırır. Bundan başqa, vahid nəqliyyat xətti üzərində yerləşən AİZ-lər arasında kooperasiya, texniki-iqtisadi və digər əlaqələrin qurulması xeyli asan və ucuz başa gəlir.

## ƏDƏBİYYAT

1. Qəribov A.N. Azərbaycanda azad iqtisadi zonanın yaradılması və inkişafının regional problemləri. Namizədlik dis.Avtoreferatı. Bakı, 1999, 25 s.

2. Qasımov E.E. Naxçıvan Muxtar Respublikası təsərrüfatının inkişaf meyilləri və ərazi təşkilinin coğrafi problemləri. Bakı, 2005, 144 səh.
3. E.E.Qasımov. Naxçıvan Muxtar Respublikası təsərrüfatının inkişaf meyilləri və ərazi təşkilinin coğrafi problemləri. Bakı, 2005, 144 s.
4. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə Bakı-2000. 280 s.
5. E.E.Qasımov. Naxçıvan MR sərhədyanı coğrafi mövqeyinin müasir vəziyyətinin qiymətləndirilməsi. Bakı Universitetinin Xəbərləri. Təbiət Elmləri seriyası № 1, Bakı-2002, səh. 184-192.

***магистр Равана Фаррух кызы Алекбарова***
***доцент Кочери Шамиль оглы Аллахвердиев***
***Азербайджанский Университет Кооперации***

**Возможности создания Нахчиванской Свободной Экономической Зоны и особенности территориальной организации**

***Резюме***

В статье на первый план в Нахчыванской области выдвигается создание свободной экономической зоны (СЭЗ), которая является одной из новых и важных региональных форм мирового экономического опыта. Создание подобных зон в Нахчыванской Автономной Республике позволило бы ей полнее использовать местный природный и трудовой потенциал, развивать экономику, открыть свои двери внешнему миру, избавиться от жестких условий блокады. Также с помощью СЭЗ можно расширить территориальную экономическую дифференциацию республики, добиться освоения новых месторождений и промышленных центров.

***Ключевые слова: Свободная экономическая зона, оптимальные центры, таможенные границы, финансовая система, удобный транспортный узел, тип производства и виды торговли и услуг и т.д.***

***Ass. Prof. Kocheri Shamil oglu Allahverdiyev***
***Master Ravana Farrukh Alakbarova***
***Azerbaijan Cooperation University***

**Possibilities of establishing Nakhchivan Free Economic Zone and characteristics of territorial organization**

***Summary***

In the article, the creation of a free economic zone (FEZ), which is one of the new and important regional forms of world economic experience, is brought to the fore in Nakhchivan MR. The creation of such zones in the Nakhchivan Autonomous Republic would allow it to make fuller use of local natural and labor potential, develop the economy, open its doors to the outside world, and get rid of the severe blockade conditions. Also, with the help of SEZ, it is possible to expand the territorial economic differentiation of the republic, to achieve the development of new fields and industrial centers.

***Keywords: Free economic zone, optimal centers, customs borders, financial system, convenient transport hub, type of production and types of trade and services, etc.***